# İsmayıllı: Daha bir il uğurlarla yadda qaldı



**“2015-ci il respublikamızın bütün bölgələri kimi, İsmayıllı rayonu üçün də uğurlu, yaddaqalan il oldu. Müxtəlif çətinliklərə baxmayaraq, rayonumuz iqtisadi, sosial, mədəni baxımdan tərəqqi edən ölkəmizin sürətli inkişafında fəal iştirak etdi. İl ərzində rayon ərazisində aparılan tikinti işlərinə nəzarəti gücləndirmək, görülən işlərin keyfiyyətini artırmaq və baş planların tələblərinə uyğunluğunu təmin etmək üçün bir sıra tədbirlər görülüb. Yola saldığımız ilin ilk rübündə dövlət vəsaiti hesabına, eləcə də sahibkarların müraciəti əsasında rayon ərazisində aparılacaq əsaslı tikinti, abadlıq-quruculuq işlərinin həcmi sistemləşdirilib, görüləcək işlərin ardıcıllığı müəyyənləşdirilib, həyata keçiriləcək abadlıq və quruculuq işləri ilə bağlı planlar hazırlanıb, icrası təmin olunubdur”.**



Bu fikirləri 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon toplantısında geniş hesabatla çıxış edən İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov səsləndirdi. Rayon rəhbərinin hesabatında qeyd edilirdi ki, ötən il İsmayıllı şəhərində küçələrin tikintisi və yenidən qurulması davam etdirilib, şəhərin 9 küçə və məhəlləsində asfaltlama, 3 küçəsində isə abadlıq işləri aparılıb. Ümumilikdə İsmayıllı şəhəri ərazisində 29821 kvadratmetr asfalt örtük vurulub. Heydər Əliyev prospekti, Aydın Səlimzadə, Xaqani, Dostluq küçələrində abadlıq işləri aparılıb, sözügedən küçələrdə əhalinin təhlükəsiz hərəkətini təmin etmək üçün 1516 metr səki yaradılıb, işıqlanma sistemi yenilənib.

Natiq qeyd etdi ki, hazırda İsmayıllı şəhərinin Baş planının tələblərinin icrası ilə əlaqədar birmərtəbəli, primitiv şəkildə inşa olunan mağazalar küçənin daha uyğun hissəsinə köçürülür. Bazar yaxınlığında infrastrukturu yeniləşdirmək və nəqliyyatın hərəkətini nizama salmaq məqsədilə 0,17 hektar ərazidə “Saat meydanı”nın inşasına başlanılıb. Həmçinin bazar ətrafında primitiv tikililərdə fəaliyyət göstərən sənətkarlar üçün yeni və müasir sənətkarlıq bazarının salınması planlaşdırılır. Ümumilikdə İsmayıllı rayonunda ötən il Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 75-ci maddəsinə əsasən, tikintiyə icazə tələb olunan, 2-si inzibati bina olmaqla 12 ictimai binanın inşasına icazə verilib. Həmçinin Şəhərsalma və Tikinti Məcəlləsinin 80-ci maddəsinə əsasən, məlumatlandırma icraatı qaydasında 211 fərdi yaşayış evinin memarlıq- planlaşdırma layihəsi rayon icra hakimiyyəti tərəfindən razılaşdırılıb.

Başçı qeyd etdi ki, tikintisi başa çatmış obyektlərdən biri də Kənd Təsərrüfatı Nazirliyinin İsmayıllı rayon şöbəsi üçün inşa olunan inzibati binadır. Binanın ərazisində İsmayıllı Rayon İcra Hakimiyyətinin təqdimatı və Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə yeni “Fermer evi”nin yaradılması nəzərdə tutulur. Obyektin tikintisi tamamlanmaq üzrədir. Rayonda 2015-ci ildə tikintisinə başlanılmış növbəti layihə Lahıc qəsəbəsində Dünya Bankının vəsaiti hesabına tikilən “İcma bazarı”-dır. “İcma bazarı” Lahıc qəsəbəsində Sovetlər dönəmində dağıdılmış köhnə karvansarayın yerində, həmin karvansaray binasının arxitektura görkəmini və yerli memarlıq üslubunu qorumaq şərti ilə inşa olunur.

Tikinti-abadlıq sahəsində həyata keçirilmiş tədbirləri yada salan Mirdaməd müəllim bu il həmin sahədə daha çox işlərin görüləcəyini qeyd etdi. Dedi ki, 2016-cı ildə rayon ərazisində daha böyükhəcmli obyektlərin inşası planlaşdırılır. “Muğan Bank”ın İsmayıllı rayon filialı və “Azərişıq” ASC nin İsmayıllı rayon şöbəsi üçün inzibati bina, şəhərin girişində, Talıstan kəndinin ərazisində nəzərdə tutulan, hazırda layihələndirməsi aparılan Cavanşir parkı bu il inşa olunacaq tikililər sırasındadır.

Hesabatda bildirildi ki, 2015-ci ildə rayonda ümumi məhsul buraxılışı müqayisəli qiymətlərlə 164 milyon 219 min 300 manat olub. Artım kənd təsərrüfatı üzrə 10,6 faiz, nəqliyyatda 6 faiz, informasiya və rabitədə 7,1 faiz, ticarətdə 10,3 faiz təşkil edib.



Əsas kapitala investisiya qoyuluşu 30 milyon 711 min 900 manat olub. Bundan başqa, 12 milyon 363 min manat dəyərində əsas fondlar istifadəyə verilib.

Mirdaməd Sadıqov rayonda təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsini və təhsilin keyfiyyətinin yüksəldilməsini daim diqqət mərkəzində saxladığına görə hesabatda bu məsələ ətrafında daha geniş danışdı. Qeyd etdi ki, ali məktəblərə tələbə qəbulu imtahanlarında 325 nəfər məzun tələbə adını qazanıb. Onlardan 20 nəfəri 600- dən yuxarı, 65 nəfəri isə 500-600 arasında bal toplayıb. Qəbul imtahanlarında yüksək bal toplamış məzunların şərəfinə rayonda bayram tədbiri keçirilib, 600-dən yuxarı və 500-600 arasında bal toplayanlar rayon icra hakimiyyətinin fəxri fərmanları ilə təltif olunub, qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Şagirdlərin təlim-tərbiyəsi sahəsində qazandıqları yüksək nəticələrə görə, 2015-ci ildə müvafiq sərəncamla şəhər 3 nömrəli məktəb-liseyin ingilis dili müəllimi Humay Əhmədova “Əməkdar müəllim” fəxri adına layiq görülüb, Lahıc qəsəbə tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Dadaş Əliyev “Tərəqqi” medalı ilə təltif olunub. “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin keçirildiyi son 8 il ərzində İsmayıllının 26 müəllimi və 22 məktəbi bu müsabiqənin qalibi olub. Keçirilən “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsində şəhər 5 nömrəli və Təzəkənd kənd tam orta məktəbləri, “Ən yaxşı müəllim” müsabiqəsində şəhər 3 nömrəli məktəb-liseyin tarix müəllimi Vasif Cabbarov, Lahıc qəsəbə tam orta məktəbin fizika müəllimi Rövşən Əliyev, Cülyan kənd tam orta məktəbin xarici dil müəllimi Şərafət Bayramov, şəhər 1 nömrəli tam orta məktəbin biologiya müəllimi Leyla Babayeva qalib gəliblər.

Rayon rəhbərinin məruzəsində xüsusilə vurğulandı ki, hesabat ilində əhaliyə göstərilən ticarət xidmətinin səviyyəsi yüksəlib, pərakəndə əmtəə dövriyyəsi 137 milyon 195 min manat, yəni keçən ilin müvafiq dövrünə nisbətən 19 milyon 245 min manat artıq olub. Əhaliyə göstərilən pullu xidmətlərin dəyəri əvvəlki illə müqayisədə 1 milyon 422 min manat artaraq, 22 milyon 162 min manat təşkil edib.

Başqa bir xidmət sahəsi barədə söz açan natiq vurğuladı ki, İsmayıllı Elektrik Şəbəkəsi 23 min 898 abonentə xidmət göstərir. Onların da 20 min 786-sı əhali, 3112-si qeyri-əhali abonentləridir. 2015-ci ildə İsmayıllı Elektrik Şəbəkəsinə 67 milyon 559 min kilovat-saat enerji daxil olub, istehlakçılara 56 milyon 376 min kilovat-saat faydalı enerji ötürülüb. İstehlak olunmuş enerjiyə görə 3 milyon 23 min manat vəsait ödənilib. İllik yığım 89,3 faiz yerinə yetirilib.

Bundan başqa, rayonun 108 yaşayış məntəqəsindən rayon mərkəzi də daxil olmaqla 37 yaşayış məntəqəsi qazlaşdırılıb. İsmayıllı Qaz İstismar Sahəsi 14 min 247 abonentə xidmət göstərir ki, bunun da 14 min 97-si əhali, 150-si qeyri-əhali abonentləridir. Hesabat dövründə abonentlərə 29,2 milyon kubmetr qaz verilib, satılan qazın dəyəri 96,7 faiz ödənilib. İl ərzində 929 əhali abonenti yeni qeydiyyata alınıb. 1395 əhali və 20 qeyri-əhali abonenti ilə alqı-satqı müqaviləsi imzalanıb. Ötən il, eyni zamanda, Basqal qəsəbə, Xanagah, İstisu və Çayqovuşan kəndləri qazlaşdırılıb.

İsmayıllı “Sukanal” idarəsi 4138 əhali, 186 büdcə və kommersiya obyektinə xidmət göstərir. “Sukanal” idarəsi tərəfindən şəhərdaxili daşıyıcı və paylayıcı xətlərin fasiləsiz işləməsi üçün xətlərdə vaxtaşırı cari təmir işləri aparılıb, korroziyaya uğramış hissələr dəyişdirilərək yenisi ilə əvəz olunub. Abonentlər üçün 2015-ci ildə 5850 ədəd mexaniki su sayğacı quraşdırılıb. Hazırda abonentlər fasiləsiz içməli su ilə təmin olunurlar.

Ötən ilin ölkədə dövlət başçısı tərəfindən “Kənd təsərrüfatı ili” elan edilməsinə toxunan rayon rəhbəri qeyd etdi ki, bu məsələ kənd təsərrüfatının inkişafının keyfiyyətcə yeni mərhələyə keçməsinə zəmin yaradıb, aqrar sahənin inkişafına dövlət dəstəyi artırılıb. Bu sahədə fəaliyyətinin genişləndirilməsi məqsədilə keçən il 78 nəfər hüquqi və fiziki şəxsə 1564 min manat kredit verilib ki, bu da 170 yeni iş yerinin açılmasına səbəb olub. Layihələr əsasında İsmayıllı şəhəri, Topçu, Qurbanəfəndi, Sumağallı, Talıstan, Kürdmaşı, Diyallı, Yeniyol, Çəmənli kəndlərində 60-dan çox istixana yaradılıb və yüksək keyfiyyətli tərəvəz məhsulları istehsal edilib.

Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətlənməsi ilə bağlı tədbirlər haqqında fərmana müvafiq olaraq rayonun müxtəlif ərazilərində yaşayan və kənd təsərrüfatı ilə məşğul olmaq istəyində olan 100 nəfərdən çox gəncin iştirakı ilə “Gənc təsərrüfatçılar məktəbi” təsis edilib. İl ərzində rayonda kənd təsərrüfatı məhsulları istehsalçılarının, fermerlərin, iş adamlarının, sahibkarların iştirakı ilə beş elmi-praktik konfrans keçirilib.

Məlum olduğu kimi, İsmayıllının iqtisadiyyatının əsasını təşkil edən aqrar sahələrdən biri də taxılçılıqdır. Cari ilin məhsulu üçün ötən ilin payızında 28212 hektar taxıl əkilmişdir ki, bunun da 20340 hektarını buğda, 7872 hektarını isə arpa təşkil edir. 3618 hektar sahədə yazlıq bitkilər əkilib. Yazlıq bitki əkinləri əsasən, noxud, qarğıdalı, günəbaxan, kartof, tərəvəz, yemlik paxla, yonca və sair bitkilərdən ibarətdir. Rayon üzrə məhsul istehsalı taxılçılıqda keçən illə müqayisədə 21274 ton artırılaraq 104894 tona çatdırılıb, məhsuldarlıq 36,3 sentner təşkil edib.

Rayon iqtisadiyyatına daha çox gəlir gətirən və əmək tutumlu sahə olan üzümçülüyün inkişaf etdirilməsi diqqət mərkəzində olub, üzüm plantasiyalarının sahəsi 1048 hektara çatdırılıb. Keçən il 114 hektar sahədə süfrə sortlarından ibarət yeni üzüm bağları salınıb, bağlardan 3408 ton məhsul toplanılıb ki, bu da əvvəlki illə müqayisədə 617 ton çoxdur. Bundan başqa, 12 hektar sahədə yeni meyvə bağı salınıb və rayon üzrə meyvə bağlarının sahəsi 1165 hektara çatdırılıb. Keçən il bağlardan 8277 ton məhsul toplanıb ki, bu da əvvəlki ildən 139 ton çoxdur.

Rayonda arıçılıq təsərrüfatlarının yaradılmasına da meyl güclənib, “Arıçılar” birliyi yaradılıb. Hazırda rayonda 6 mindən çox arı ailəsi mövcuddur. Ötən il arıçılar 72 ton yüksək keyfiyyətli bal istehsal ediblər.

Rayon həyatının bütün sahələri barədə, ən kiçik detallara qədər incəliklə söz açan RİH başçısı fikirlərini yekunlaşdırarkən artıq öz adından deyil, İsmayıllının bütün sakinləri adından dedi: İsmayıllı ictimaiyyəti cənab Prezidentin səmimiyyətini, xalqa, Vətənə layiqli xidmətini həmişə yüksək dəyərləndirir. Davamlı olaraq apardığı sosial-iqtisadi inkişaf strategiyasını öz həyatında, gündəlik yaşam tərzində hiss edir, onun liderlik gücünə inam bəsləyərək rahat, azad və xoşbəxt bir həyat sürür.

Sonda Mirdaməd müəllim qeyd etdi ki, 2016-cı ildə qarşımızda daha böyük və məsul vəzifələr, Azərbaycanın uğurlu inkişafı və xoşbəxt gələcəyi naminə yerinə yetirilməsi vacib olan çox böyük işlər durur.

Məruzə ətrafında müzakirələrdə çıxış edənlər ötən il İsmayıllıda görülən işlərdən, qarşıda duran vəzifələrdən, onların həlli yollarından danışdılar. Bildirdilər ki, onlar ölkə Prezidenti cənab İlham Əliyevin siyasətini bəyənir və daim dəstəkləyirlər.

Yığıncaqda Milli Məclisin deputatı Novruz Aslanov və Prezident Administrasiyasının məsul işçisi Dəyanət Abdullayev çıxış etdilər.

*İlqar HƏSƏNOV,*
*“Xalq qəzeti”nin bölgə müxbiri*